Ədəbiyyat qəzeti

6 mart 2021-ci il 23

*Azərbaycan Respublikasının Xalq şairi Nəriman Həsənzadəyə*

Çox hörmətli Nəriman müəllim,

Sizi 90 illik yubileyiniz və Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev tərəfindən "İstiqlal" ordeni ilə təltif olunmağınız münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Müasir Azərbaycan ədəbiyyatının və ədəbi tarixinin inkişafında xüsusi yeriniz olan ictimai xadim kimi Azərbaycanda üç nəsil yaradıcı insanların formalaşmasında, onların yaradıcılıq axtarışlarına sövq edilməsində xidmətləriniz əvəzsizdir. Sürdüyünüz şərəfli ömür ərzində mühüm tarixi hadisələrin şahidi olmuş, Azərbaycan poeziyasının zənginləşməsində yaxından iştirak etmisiniz. Yazıb-yaratdığınız bütün əsərləriniz, araşdırmalarınız Azərbaycan ədəbiyyatının qiymətli nümunələridir.

Fürsətdən istifadə edərək, Sizi bir daha səmimi qəlbdən təbrik edir, uzun ömür və Azərbaycan ədəbiyyatının inkişafında həyata keçirdiyiniz şərəfli fəaliyyətinizdə yeni yaradıcılıq uğurları arzulayıram.

Arzu edirəm ki, 100 illik yubileyinizdə hörmətli Prezidentimiz Sizi yenidən təltif etsin.

Ən əsas cansağlığı diləyirəm!

Hörmətlə, Ən xoş arzularla!

***Polad BÜLBÜLOĞLU***